

# Mir Cəlal Paşayev və bizim ailə

*Gədəbəydən redaksiyamıza daxil olan bu məktubu diqqətinizə verməzdən əvvəl onun müəllifi haqqında oxucülarımızın məlumatını genişləndirmək istərdik.*

*Fazilə xanım yalnız çalışdığı bölgədə deyil, həm də ətraf rayonlarda da kifayət qədər nüfuza malikdir.*

***O** bu hörməti zəhmətsevərliyi, savadı, dünyagörüşü, diqqət və qayğısı, yüksək təşkilatçılıq bacarığı sayəsində qazanmışdır. Bu yerdə ötən il Gədəbəydə neçə-neçə ağsaqqalın, ziyalının dilindən eşitdiyimiz fikri xatırlayırıq: «Mədəniyyət sahəsində nə qədər iş görülübsə hamısı Fazilə xanımın fəaliyyəti dövrünə təsadüf edir. Onun təyinatınadək heç bir addım atılmamışdı. Yaşayanda da gərək Fazilə Məmmədova kimi yaşayasan – alnıaçıq, üzüağ, böyük nüfuz qazanaraq...»*

Mir Cəlal XX əsr Azərbaycan ədəbiyyatı və elmi tarixində şöhrət tapmış görkəmli şəxsiyyətlərdən biridir. O, yetmiş illik ömrünün tam yarım əsrini çətin, elmi və pedaqoji yaradıcılıq işinə həsr etmişdir.

1924-28-ci illərdə Gəncə Darülmüəllimində oxumuşdur. Buranı bitirdikdən sonra dağlar qoynunda yerləşən doğma Gədəbəyimizin yeddiillik məktəbinə müəllim göndərilmişdir. Bu müddətdə yerli əhalinin savadsızlığı, qadınların çadrasız gəzməsi uğrunda mübarizə aparmışdır.

Anam, Məmmədova Zibər Ağa qızının (müəllimə) söylədiyi xatirədən bir nümunə;

–Həmin dövrdə mən V sinifdə oxuyurdum. Özüm də sinif nümayəndəsi idim. Həm də çadrasız gəzirdim. Nigar müəllimə də yaşca böyük olmasına baxmayaraq, mənimlə bir sinifdə oxuyurdu. O isə dərsə çadralı gəlirdi.

Mir Cəlal müəllim məni nümunə göstərib dedi:

–Ay Nigar, görürsənmi Zibər çadrasız gəlir. Sən də o çadranı at.

Anam da söhbətə qarışır.

Bu danışıqdan sonra Nigar müəllimə çadranı atır, amma paltarı yamaqlı olduğu üçün utanır.

Mir Cəlal müəllim deyir:

– Utanma, qızım, yaman günün ömrü az olar.

Mir Cəlal müəllimin Gədəbəydə müəllimlik fəaliyyəti dövründə atam-Məmmədov Mikayıl gənc müəllim imiş. Onların münasibətləri olduqca səmimi imiş. Atam onu tez-tez qonaq aparırmış.

1962-ci ilin isti yay günlərindən biri idi. Atamla ADU-da idik. Bu zaman Mir Cəlal müəllimlə rastlaşdıq. O, məni görən kimi sevincdən doğma balası kimi bağrına basdı: «Nə xoş təsadüf, sanki mən sevimli şagirdim Zibəri görürəm. Ay aman, gözlər necə də Zibəri xatırladır».

Bacım-Amalya ADU-nun filologiya fakültəsinin I kursunda oxuyan zaman Mir Cəlal müəllim «Ədəbiyyatşünaslıq» dərsini tədris edirmiş. Dərs zamanı Amalyaya deyir:

–Qızım, sənin suyun mənə şirin gəldi. De görüm hansı rayondansan?

Bacım cavab verir:

–Mən Gədəbəyliyəm.

–Gədəbəylisən? Kimlərdənsən?

–Mikayıl müəllimin qızıyam.

–Qızım, sən məni xəyalən füsunkar gözəlliyi olan dağlar qoynuna apardın.

1977-ci ildə Amalya müəllimənin qızı Əsədova Gültəkin Kərəm qızı da ADU-nun filologiya fakültəsinə qəbul olunur. Gözəl pedaqoq, Gültəkinin də müəllimi olub. Hətta o inamla belə deyir.

–Mən əvvəlcə anasına, sonra övladına, daha sonra isə nəvəsinə dərs dedim. Ümidim var ki, nəticəsinə də dərs deyəcəyəm.

Əfsuslar olsun ki, ömür vəfasız çıxdı. Gənc nəslin yetişməsi və təlim-tərbiyəsi sahəsində böyük əməyi olan istedadlı pedaqoq 1978-ci il sentyabrın 28-də vəfat etdi.

Şöhrət ardınca qaçmayan sadə, təmkinli alim-müəllim xatirələrdə əbədiləşəcək.

İllər ötsə də Mir Cəlal müəllim atam Mikayıl müəllimin övladlarının qəlbində həmişə yaşayacaq.

Qəbrin nurla dolsun, Mir Cəlal müəllim.

**Fazilə MƏMMƏDOVA,**
**Gədəbəy Rayon Mədəniyyət və Turizm Şöbəinin müdiri**